# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri dəfn edilib






Birinci Qarabağ müharibəsinin itkin şəhidi Elçin Balaxan oğlu Quliyev oktyabrın 30-da paytaxtın Suraxanı rayonu ərazisində yerləşən "Dədə Qorqud" qəbiristanlığındakı Şəhidlər xiyabanında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin əməkdaşları, Suraxanı Rayon İcra hakimiyyətinin nümayəndələri, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət himninin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Tabutun büküldüyü Azərbaycanın Dövlət Bayrağı şəhidin yaxınlarına təqdim olunub.

Şəhidin böyük qardaşı Ramiz Quliyev Elçin haqqında təəssüratlarını bölüşüb. O bildirib ki, qardaşı 15 oktyabr 1965-ci ildə Bakı şəhərində, Balaxanı qəsəbəsində anadan olub. O, 1977-ci ildən ailəsi ilə birlikdə Xankəndində yaşayıb. Orta təhsilini Xankəndində yerləşən 4 nömrəli Nizami Gəncəvi adına məktəbdə alıb. Orta məktəbi bitirdikdən sonra Sovet Ordusu sıralarında hərbi xidmətə yollanıb. Xidmətinin bir hissəsini Leninqradda (indiki Sankt-Peterburq), sonra isə Kubada keçib. Hərbi xidməti başa vurduqdan sonra Vətənə qayıdıb. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz zamanı Elçin də ön cəbhəyə yollanaraq, Vətənin müdafiəsinə qalxan könüllülərin sırasında olub. O, Xocalı istiqamətində gedən döyüşlərdə Əlif Hacıyev və Aqil Quliyev kimi igidlərin rəhbərlik etdiyi dəstədə vuruşub. "Qardaşım 1992-ci ilin fevral ayında, Xocalı faciəsindən bir neçə gün əvvəl, təxminən fevralın 23-24-də gedən ağır döyüşlərdə yaralanıb. Yaralı vəziyyətdə olmasına baxmayaraq, onu döyüş mövqeyindən çıxarmaq istəyəndə Elçin belə deyib: "Məni deyil, qadınları və mülki insanları çıxarın. Mən burada qalacağam". Bu sözlər onun Vətənə, xalqına olan sədaqətinin, əsl qəhrəmanlıq nümunəsinin göstəricisidir. O həmin döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onun qəhrəmanlığı silahdaşlarının, ailə üzvlərinin qəlbində silinməz iz qoyub. Elçin öz həyatını xalqı üçün fəda edib. Biz onunla fəxr edirik", - deyə Ramiz Quliyev diqqətə çatdırıb.

❖ ❖ ❖

Birinci Qarabağ müharibəsinin itkin şəhidi Aydın Nəriman oğlu Nuruyev oktyabrın 30-da Göyçay rayonunda dəfn olunub.

Əvvəlcə rayonun Mırtı kəndində itkin şəhidlə vida mərasimi keçirilib.

Mərasimdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, qazilər, kənd sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Mərasimdə cənazə namazı qılınıb.

Vida mərasimindən sonra itkin şəhid Göyçay şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Aydın Nuruyev 1973-cü ildə Göyçayın Mırtı kəndində anadan olub. O, 1992-ci ildə Xocalı ərazisində gedən döyüşlərdə itkin düşüb.

Aydın Nuruyev Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyətləri müəyyənləşdirilərək dünən dəfn olunan dörd şəhiddən biridir.

Azərbaycan.- 2025.- 31 oktyabr (№233).- S.16.